**Bakı şəhəri** **№ 08** **01 iyun 2017-ci il**

**Azərbaycan Respublikası Prezidentinin “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə 2017-ci il 03 may tarixli 1361 nömrəli Fərmanından irəli gələn vəzifələrin icrası ilə əlaqədar Tədbirlər Planının təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə 2017-ci il 03 may tarixli 1361 nömrəli Fərmanının 50.2-ci, 52-ci və 71.4-cü bəndlərindən irəli gələn vəzifələrin icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikası Prezidentinin “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın təsdiq edilməsi barədə 2017-ci il 03 may tarixli 1361 nömrəli Fərmanının 50.2-ci, 52-ci və 71.4-cü bəndlərindən irəli gələn vəzifələrin icrası ilə əlaqədar Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur).
2. Palatanın “Məhkəmələrlə iş və inzibati protokollar” şöbəsinə (E.İbrahimov) tapşırılsın ki, Tədbirlər Planında nəzərdə tutulmuş işlərin vaxtında və keyfiyyətlə icrasını təmin etsin.
3. Bu əmrin mətninin Auditorlar Palatasının internet səhifəsində yerləşdirilməsi təmin edilsin.
4. Bu əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**SƏDR** **V.NOVRUZOV**